# VİKTOR İVANOVİÇ BURENKOV

V.İ. Burenkov 1958-1963-cü illərdə Moskva Fizika-Texnika İnstitutunda (Tətbiqi riyaziyyat) təhsil almışdır. 1966-cı ildə Moskva Fizika-Texnika İnstitutunun Riyaziyyat kafedrasının aspiranturasını bitirib (Funksiyalar nəzəriyyəsi). 1967-ci ildə fizika-riyaziyyat elmlər namizədi elmi dərəcəsini almışdır (funksiyalar nəzəriyyəsi, Steklov adına Riyaziyyat İnstitutu, Rusiya Elmlər Akademiyası (Moskva)). 1983-cü ildə fizika-riyaziyyat elmlər doktoru elmi dərəcəsini almışdır (funksiyalar nəzəriyyəsi, Rusiya Elmlər Akademiyasının Steklov adına Riyaziyyat İnstitutu, (Moskva)). 1986-cı ildə professor adına layiq görülüb.

V.İ. Burenkovun professional fəaliyyəti:

1966-1968, asistent, Riyaziyyat kafedrası, Fizika-Texnika İnstitutu;

1968-1981, dosent, Moskva Radiotexnika, Elektronika və Avtomatlaşdırma Texniki İnstitutu, Riyaziyyat kafedrası;

1981-1984, dosent, diferensial tənliklər və funksional analiz kafedrası, Rusiya Xalqlar Dostluğu Universiteti;

1984-1994, professor, diferensial tənliklər və funksional analiz kafedrası, Rusiya Xalqlar Dostluğu Universiteti;

1994-cü ildə Rusiya Elmlər Akademiyasının Steklov adına Riyaziyyat İnstitutunun aparıcı elmi işçisi (əvəzçiliklə);

1994-2007-ci illərdə Kardif Universitetinin professoru (Böyük Britaniya);

2007-2011-ci illərdə Podava Universitetinin professoru (İtaliya);

2011-2014-cü illərdə L.N. Qumilyov adına Avrasiya Milli Universitetinin professoru (Kazaxıstan);

2014-cü ildən indiyə qədər beynəlxalq səviyyədə Rusiya Xalqlar Dostluğu Universitetinin professoru, riyazi analiz və funksiyalar nəzəriyyəsi kafedrasının müdiri, eyni zamanda Rusiya Elmlər Akademiyasının Steklov adına Riyaziyyat İnstitutunun ştatdankənar işçisi (əvəzçiliklə);

V.İ. Burenkovun elmi istiqamətləri: funksiyalar nəzəriyyəsi və funksional analiz, xüsusui törəməli diferensial tənliklər, inteqral tənliklər, geofizikanın tətbiqləri, kvant mexanikası, ədədi üsullar;

Yerli və xarici nəşrlərdə 170-dən çox elmi əsərlərin müəllifidir. 140-dan çox əsəri Math-Sci.Net Beynəlxalq portalda qeydə alınıb. Həmin portalda 350 müəllif tərəfindən onun məqalələrinə 500 dən çox istinad edilib. Web of Knowledge bazasında 80-dən

çox məqaləsi və 500-dən artıq istinad, Google Scholar bazasında isə 2800 istinad qeydə alınıb.

V.İ. Burenkov 30-dan çox xarici ölkə alimləri ilə həmmüəlifdir, o cümlədən onlardan 3 nəfər Azərbaycandan. Rusiya və bir sıra xarici ölkələrdə çoxsaylı ümumi və xüsusi tədris kursları, əsasən riyazi analiz, funksional analiz və diferensial tənliklər üzrə mühazirələr oxuyub. O, Sobolev fəzaları nəzəriyyəsinin mühazirələrini 4-dən 30-a qədər inkişaf etdirmiş və onu dünyanın 10-dan artıq universitetində oxumuşdur. Onun əsasında bir neçə dərsliklər yazılıb, Rusiya Xalqlar Dostluğu Universiteti tərəfindən nəşr olunub, və "Sobolev spaces on domains" monoqrafiyası dünyanın bir sıra universitetlərində dərslik kimi əsas sayılır. Onun rəhbərliyi altında 25 dən çox namizədlik dissertasiyasını müdafiə etmişlər (o cümlədən bir aspirantı Azərbaycandan).

1991-ci ildə Rusiya Xalqlar Dostluğu Universitetinin Elmi Şurasının medalı ilə mükafatlandırılıb.

2006-cı ildə O, Qumilyov adına Avrasiya Milli Universitetinin fəxri professoru adına layiq görülüb. 2011-ci ildə Rusiya Elm və Təhsil Nazirliyi tərəfindən şərəf ordeni ilə təltif olunub və bundan əlavə Kazaxstan Təhsil və Elm Nazirliyi tərəfindən medalla təltif olunub. Kardif və Padova Universitetlərinin fəxri əməkdaşıdır. Bir çox elmi layihələrin üzvü Rusiya Fundamental tədqiqatlar Fondu və Rusiya Elmi Fondu qrantları tərəfindən dəstəklənən, eləcə də çoxsaylı beynəlxalq layihələrin üzvü və onların rəhbəri olmuşdur.

1995-1998, 2000-2002-ci illərdə vitse-koordinator, 2006-2009-cu ildə isə böyük beynəlxalq layihələrin Rusiya riyaziyyatçıların iştirakı ilə, o cümlədən Rusiya Xalqlar Dostluğu Universitetinin İNTAS xətti ilə koordinatoru olmuşdur. Layihədə 2006-2009-cu illərdə 11 ölkədən 65 riyaziyyatçı iştirak etmişlər (o cümlədən Azərbaycandan).

O, müntəzəm olaraq beynəlxalq konfranslarda iştirak edir, onların bir çoxunun təşkilat komitəsinin üzvü olmuşdur. 30-dan çox ölkədə 100-dən artıq dəvətli məruzəçi qismində çıxış etmişdir. Yerli və beynəlxalq jurnallarının redaksiya heyətinin üzvüdür.

1994-1998-ci illərdə Rusiya Xalqlar Dostluğu Universitetinin Xəbərləri jurnalının baş redaktoru olmuşdur (o cümlədən Azərbaycanda iki jurnalın, AMEA-nın "Xəbərləri" və RMİ-nin "Əsərləri" jurnallarının redaksiya heyətinin üzvüdür ).

2010-cu ildən "Eurasian Mathematical Journal" jurnalının Rusiya Elmlər Akademiyasının akademiki V.A. Sadovniç və Kazaxstan Elmlər Akademiyasının akademiki M. Otelbayev ilə birgə baş redaktordur.

2003-2013-cü illərdə Beynəlxalq Riyaziyyat Cəmiyyətinin İSAAC, vitse-perzidenti olmuşdur. 2011 ildə İSAAC Rusiya Xalqlar Dostluğu Universitetinin 8-ci Konqresin

əsas təşkilatçılarından biri (Azərbaycan daxil olmaqla 40 ölkədən 400-dən artıq iştirakçı) olmuşdur.

V.İ. Burenkov dəfələrlə Azərbaycana səfər etmişdir, onun ilk səfəri 50 il bundan əvvələ təsadüf etmişdir.